# Mətnin struktur növləri: Mətn qurmaq strategiyasının alqoritmi

## MƏNA ƏLAQƏLƏRİNƏ GÖRƏ MƏTNİN STRUKTUR NÖVLƏRİ

Məna əlaqələrinə görə mətnin strukturu – mətndə verilmiş fikir və informasiyaların bir-biri ilə əlaqəsi və mətnin tərkib hissələrində onların paylanması sistemidir. Mətnin strukturu ideyalar arasında məntiqi əlaqəni, həmçinin mətn vahidlərinin öz aralarında asılılığını müəyyənləşdirir.

### Məna əlaqələrinə görə mətnin strukturunu bilməyin əhəmiyyəti

Yaxşı strukturlaşdırılmış mətn verilmiş informasiyanın yadda saxlanmasına təsir göstərir. Strukturu qavrayan oxucu oxu zamanı mətni asan yadda qalan məna vahidlərinə ayırmaqla verilmiş məlumatları qruplaşdırır. Bunun əksinə olaraq, əgər mətnin strukturunu anlamaq çətindirsə, oxucu məlumatları pərakəndə qəbul edir və elə də yadda saxlayır. Düzgün qurulmuş mətn təkcə əldə edilən biliklərin miqdarına deyil, həm də məzmununa təsir göstərir. Yaxşı strukturlaşdırılmış mətn əsas fikirləri ikinci dərəcəli detallardan daha asan və dəqiq ayırmağa kömək edir; zəif strukturlaşdırılmış mətnləri oxuyanlar daha çox ikinci dərəcəli detalları yadda saxlamaq və əsas fikirdən yayınmaq vərdişi qazanırlar. Strukturu düzgün olmayan məlumatlandırıcı mətnlər isə oxucudan daha çox zaman və diqqət tələb edir, çünki əsas ideyaların, informasiyaların müəyyən edilməsi üçün məzmunu deşifrə etmək lazım gəlir. Şagirdlərə təqdim edilən mətnlərin strukturunun düzgünlüyü onların yazı bacarıqlarına təsir göstərdiyi üçün oxu təlimlərində düzgün strukturlu mətnlərin seçilməsi əhəmiyyətlidir.

### Struktur növləri

Məlumatlandırıcı mətn strukturunun beş növü müəyyən edilmişdir: təsvir, ardıcıllıq, problem-həlletmə, müqayisə/ziddiyyət və səbəb-nəticə.

Bu struktur növlərinin qısa izahı və onları təyin edən xüsusi açar sözlər Cədvəl 1-də təqdim olunmuşdur.

Cədvəl 1. Məlumatlandırcı mətn struktur növləri

| Mətn strukturu növləri | Tərif | Açar sözlər |
|---|---|---|
| Təsvir | Əsas ideya fakt, detal, təsvir və nümunələrlə dəstəklənir. | Predmetləri, obyektləri, həyat tərzini və s. təsvir edən cümlələrdən istifadə olunur. |
| Ardıcıllıq | Əsas ideya müəyyən ardıcıllıqla təqdim edilməli olan detallarla (məsələn, zaman qrafiki və ya prosesin izahı) dəstəklənir. Bu ardıcıllıq xronologiyaya da əsaslana bilər. | *Birinci, ikinci, sonrakı, nəhayət, nə vaxt, nə qədər* və zaman və ya prosesin ardıcıllığını bildirən başqa sözlər işlədilir. |
| Müqayisə/ziddiyyət | İki və daha artıq əsas fikrin, oxşar və fərqli yanaşmaların izahı şəklində təqdim olunur. Yanaşmaların ardıcıllığı müxtəlif variantlarda ola bilər: məsələn: müqayisə/müqaysə/; ziddiyyət/ziddiyyət; müqayisə/ziddiyyət. | *Filan məsələ ilə müqayisədə, ondan fərqli olaraq, eynilə, onun kimi, əvəzinə, oxşar olaraq, anoloji olaraq* və digər müvafiq ifadələrdən istifadə edilir. |
| Səbəb-nəticə | Əsas ideya arqumentlərlə dəstəklənməklə səbəb və nəticə əlaqəsinin izahı şəklində təqdim edilir. Səbəb və ya nəticənin təqdimat sırası fərqli ola bilər (yəni, əvvəlcə səbəb, sonra nəticələr təqdim edilə bilər və ya əksinə). | *Çünki, ona görə də, nəticədə, səbəbilə* və səbəb/nəticəni müəyyənləşdirən digər ifadələrdən istifadə olunur. |
| Problem-həlletmə | Problem qoyulur və həlli yolları mətnin əsas tezisi olaraq təqdim edilir. Əvvəlcə problem təqdim edilməli, daha sonra həllinin təfərrüatları verilməlidir.<br>İbtidai siniflər üçün bu, adətən, sual və cavab(lar) şəklində olur. | *Sual budur ki, problem odur ki, məsələ kimi sözlərdən və ya neqativ* ifadələrdən istifadə edilir. |

**Mətnin strukturunun analizi.** Mətnin strukturunu analiz etmək üçün üç klassik təsvir səviyyəsi var:

1. Cümlə və mikrocümlə səviyyəsində: mətnin ən kiçik səviyyəsində məsələnin həlli. Bu səviyyədə struktur dedikdə mətn daxilində cümlələrin təşkili - hər bir yeni cümlə

və ya informasiya elementinin özündən əvvəlkilərlə əlaqəsi nəzərdə tutulur. Mürəkkəb cümlələrin tərkibləri arasındakı məna əlaqələri də bu səviyyəyə daxildir.

2. Abzas və ya makrocümlə səviyyəsində: abzasda təqdim edilmiş fikirlər (cümlələr kompleksi) arasında əlaqədən söhbət gedir.

3. Yüksək səviyyəli struktur: bütöv mətnin tərtibatını əhatə edir.

Mətnin yüksək səviyyədə strukturu onun tərtibatının ümumi prinsiplərinə cavab verir və təqdim edilmiş informasiyanın dərk edilməsinə, yadda saxlanmasına əhəmiyyətli dərəcədə təsir göstərir.

Yüksək səviyyəli strukturun təhlili mətnin tərtibatına daxil struktur modellərini (təsvir, ardıcıllıq, problem-həlletmə, müqayisə/ziddiyyət, səbəb-nəticə), həmçinin çoxsaylı strukturları birləşdirən mətnləri müəyyən etməyə imkan verir və bununla da şagirdlərin daha mürəkkəb strukturlu mətn qurmaq bacarıqlarını formalaşdırır.

Mətnin struktur növləri ilə hərtərəfli tanışlıq və sinifdə mətn stukturunun analizinin səviyyələri üzrə fəaliyyətlər aparmaq şagirdlərin oxuyub-anlama vərdişlərini inkişaf etdirməklə yanaşı nitq və mətn qurmaq bacarıqlarını formalaşdırır.

## MƏTN QURMAQ STRATEGİYASININ ALQORİTMİ

Azərbaycan dili fənninin tədrisində şagirdləri məna əlaqəsinə görə mətnin struktur növləri anlayışı və mövzu ilə ümumi tanış etdikdən sonra hər bir struktur növünün ayrıca tədrisi tələb olunur. Bunun üçün müəllimlər aşağıdakı təlim alqoritmindən istifadə edə bilərlər.

**Strategiya yaradın və tətbiq edin**

Dərsdə mətn qurmaq strategiyasını yaratmaq üçün zəruri addımlar aşağıdakılardır:

Oxunun məqsədini müəyyənləşdirin və oxunacaq mətni şagirdlərə təqdim edin.

Anlayışı təqdim edin: Mətnlərin struktur adlanan tərtibat qəliblərinə malik olmasını izah edin.

Mətnin struktur növləri haqqında məlumat verin:

**Təsvir.** Predmetin canlı, hərtərəfli inikasını yaratmaq üçün nəzərdə tutulmuş mətn strukturudur. Belə mətnlərdə predmetin cizgilərini, xüsusiyyətlərini, keyfiyyətlərini və s. əks etdirmək üçün təsviri dildən istifadə olunur.

**Ardıcıllıq.** Ardıcıl mətn strukturundan istifadə etməyin iki yolu var: prosedurda fəaliyyət ardıcıllığını, hadisələrin xronoloji ardıcıllığını çatdırmaq.

Prosedur məlumatlarının ardıcıl strukturu yemək bişirmə təlimatlarından tutmuş elmi metodlara qədər tədris vəsaitlərində geniş yayılmışdır. Xronoloji ardıcıllıq isə tarixi elmi-kütləvi əsərlərdə istifadə olunan ümumi strukturdur.

**Müqayisə/ziddiyyət.** Müəlliflər bəzən iki və daha artıq predmet arasında oxşar və fərqli xüsusiyyətləri müəyyənləşdirməli olurlar. Müqayisə/ziddiyyət quruluşunda mətnlər onlara məhz bu imkanı yaradır. Müqayisə müxtəlif obyektlər arasında aparıla bilər: insan, məkan, hadisə, vəziyyət, fikir və ya konsepsiya, Bədii mətnlərdə də bu strukturdan geniş istifadə olunur.

**Səbəb-nəticə.** Əsasən, hadisə, fəaliyyət, fikirlər arasında səbəb-nəticə əlaqələrini göstərmək və onların korrelyasiyasını izah etmək üçün bu strukturdan istifadə olunur. Struktur tədris vəsaitlərində olduğu kimi, tarixi ədəbiyyatda da geniş istifadə olunur.

**Problem-həlletmə.** Göstərilmiş probelmin həllini təqdim etmək məqsədilə problem-həlletmə quruluşunda mətn yazılır. Strukturun təyinatı problemin səbəblərinin, qaldırılmasının vacibliyini və təklif edilən həll yollarının effektivliyini əsaslandırmaqdır. Bu tərtibat daha çox ictimai-siyasi ədəbiyyat, çıxışlar, həmçinin biznes, texnologiya sahələrinin ədəbiyyatı üçün xasdır.

Bədii əsərlərin strukturu süjet anlayışı ilə müəyyənləşdirilsə də, belə mətnlərin məzmun və strukturunun təhlilində də məna əlaqələrinin izahı əhəmiyyətlidir. Təsvir bədii ədəbiyyatda obrazların inikasıdır. Epik və drammatik əsərlərdə də xronoloji ardıcıllıqdan istifadə olunur, buna nağıl xronologiyası da deyilir. Süjetli bədii mətnlərdə eyni zamanda səbəb-nəticə əlaqələri müşahidə edilə bilər. Epik və dramatik əsərlərdə isə problem-həlletmə süjetin əsasını təşkil edir.

**4. Mətnin strukturunu qrafik modellər vasitəsilə təqdim edin.**

Dərsdə mətn qurmaq strategiyasını <u>tətbiq etmək</u> üçün vacib addımlar aşağıdakılardır:

**Fəaliyyət 1:** Hər bir mətn strukturuna uyğun abzas nümunələri göstərin. Struktura uyğun qrafik model təqdim edin.

**Nümunələr:** “Bal arısı” mətni əsasında təqdim edilir.

<u>Tapşırıq 1</u>

*Bal arıları ailə şəklində olur. Bu ailədə hərənin öz işi, öz vəzifəsi var.*

*Arı ailəsində minlərlə arı yaşayır. Lakin ana arı bircə dənə olur. Onun əsas vəzifəsi dünyaya yeni balaca arılar gətirmək və onları bəsləyib boya-başa çatdırmaqdır. Kəşfiyyatçı arı gedib çölü-çəməni gəzir və pətəyə – ailənin evinə qayıdır. O özü ilə*

*çiçəklərin ətrini gətirir və çəmənliyin yerini işçi arılara nişan verir. İşçi arılar həmin yerlərə uçur, çiçəklərdən nektar toplayır və onu bala çevirib şana doldururlar.*

*Ailədə keşikçi arılar da olur. Onlar pətəyi düşmənlərdən qoruyurlar. Bu arıların bir başqa vəzifəsi də tənbəllik edən işçi arıları cəzalandırmaqdır. Keşikçi arılar çölü-çəməni boş-boş gəzib geriyə balsız dönən işçi arıları pətəyə buraxmırlar.*

Struktur növunü müəyyən edin:_______________; Açar sözlər:_______________

Cavab:Təsvir; Arı ailəsinin üzvlərinin həyat tərzini təsvir edir.

Struktur modeli:




<u>Tapşırıq 2</u>

*Qış aylarında pətəkdə ancaq ana və işçi arılar olur. Çünki qış gəlməmiş erkək arılar ya pətəkdən bayıra atılır, ya da öldürülürlər. Lakin qış mövsümü bitdiyində işçi arılar erkək arılar üçün pətək inşa etməyə başlayırlar. Ana arı isə şan qovuqcuğuna erkək arıları yetişdirən yumurtalarını qoyur. May ayının əvvəlində erkək arılar qovuqcuqlardan çıxmağa başlayırlar. Ümumiyyətlə, bu aylar qoca ana arının yeni arı ailəsi qurmaq üçün pətəkdən ayrıldığı və pətəkdə yeni ana arıların yetişdirildiyi aylardır. Məhz bu dönəmdə yeni yetişmiş ana arı yumurta qoymaq üçün cütləşmə uçuşuna çıxır.*

Strukturu müəyyən edin: _________ Açar sözləri seçin: _____________________

Cavab: Müqayisə/ziddiyyət əlaqəsi davam etdirilməklə yanaşı ardıcıllıq əlaqəsi müşahidə edilir; qış gəlməmiş, may ayının əvvəli, bu aylar, bu dönəm.

Struktur modeli:



Tapşırıq 3

*Arı ailəsində bütün arıların işi var. Təkcə erkək arılar istisnadır. Erkək arılar nə pətəyin qorunmasında, nə təmizliyində, nə də qida tədarükündə iştirak edərlər. Onların pətəkdəki yeganə funksiyaları ana arını mayalandırmaqdır. Cütləşmə orqanlarından başqa digər arılarda olan xüsusiyyətlərin demək olar ki, heç birinə sahib olmadıqlarından, sadəcə, ana arını mayalandırmaqla məsuliyyət daşıyırlar.*

Strukturu müəyyən edin: _________ Açar sözləri seçin: ____________________

**Cavab:** Müqayisə/ziddiyyət; istisna, yeganə, digər, heç biri, sadəcə

Struktur modeli:




Tapşırıq 4

*Əslində, ana arının cütləşməsi üçün ən çox 10 erkək arı bəs edir. Buna baxmayaraq, arı ailəsində yüzlərlə erkək arı yetişir. Pətəkdə görüləcək işlər çox olsa da, işçi arıların bir qismi bütün vaxtlarını ancaq erkək arıların baxımına sərf edirlər. Bu, çox vacib vəzifədir. Çünki ana arı cütləşmək üçün uçduğunda mütləq erkək arı tapmalıdır. Arıların cırcırama kimi düşmənlərinin olmasını və erkək arıların özünümüdafiə üçün zəhər və ya iynəsinin olmamasını nəzərə alsaq, onların çox olmalarının əhəmiyyətini anlayarıq. Başqa heç bir işə yaramayan erkək arıların işçi arılar tərəfindən xüsusi diqqətlə qorunması pətəyin təhlükəsizliyi baxımından alınan vacib tədbirdir. Əlbəttə ki, bu tədbirin məqsədi vardır. Burda əsas məqsəd pətəyin davamlı olmasını təmin etmək və ana arıların cütləşməsini riskə atmamaqdır.*

Struktur növünü müəyyən edin:________________ Açar sözlər:______________

Cavab: Mətnin əsas struktur növu olan müqayisə/ziddiyyət davam etdirilməklə yanaşı səbəb-nəticə əlaqəsi qurulmuşdur; cünki, əsas məqsəd.

Struktur modeli:




Tapşırıq 5

*Amma bir sual çıxır: arılar bu mühüm qərarı necə verirlər? Onlar bu məsələni bir araya gələrək birlikdəmi müəyyən ediblər? Yoxsa bu işin bu şəkildə olmasını təsadüfən kəşf edib və bunun çox mükəmməl bir strategiya olduğunu müəyyən edib, davam etdirmək qərarını veriblər? Əlbəttə ki, arılar bunun heç birini məqsədyönlü etməzlər. Arıların qərar mexanizmləri, strategiya müəyyən edib sonra da onu həyata keçirmək şüurları yoxdur. Onlar da yer üzündəki bütün canlılar kimi Allaha boyun əyiblər.*

Struktur növünü müəyyən edin:____________; Açar sözlər:_____________

Cavab: Probelm-həlletmə; qərar, məsələ, strategiya.

Struktur modeli




Qeyd: Müqayisə/ziddiyyət strukturunda yazılmış "Bal arısı" mətninin məna vahidləri bütün struktur növlərini ehtiva edir.

**Fəaliyyət 2:** Şagirdlərə mətn strukturu haqqında ipucları verən tematik cümlələri müəyyənləşdirməyi öyrədin.

Tapşırıq 1: *"Bal arıları ailə şəklində olur. Bu ailədə hərənin öz işi, öz vəzifəsi var."*

Tapşırıq 2: *"Arı ailəsində bütün arıların işi var. Təkcə erkək arılar istisnadır."*

Tapşırıq 3. *"... qış gəlməmiş erkək arılar ya pətəkdən bayıra atılır, ya da öldürülürlər. Lakin qış mövsümü bitdiyində işçi arılar erkək arılar üçün pətək inşa etməyə başlayırlar.*

Tapşırıq 4. *“...işçi arıların bir qismi bütün vaxtlarını ancaq erkək arıların baxımına sərf edirlər.... Çünki ana arı cütləşmək üçün uçduğunda mütləq erkək arı tapmalıdır.”*

Tapşırıq 5: *“Onlar bu məsələni bir araya gələrək birlikdəmi müəyyən ediblər? Yoxsa bu işin bu şəkildə olmasını təsadüfən kəşf edib və bunun çox mükəmməl bir strategiya olduğunu müəyyən edib, davam etdirmək qərarını veriblər?”*

**Fəaliyyət 3:** Şagirdlərə müəyyən mətn strukturuna uyğun abzas yazmağı tapşırın.

***Şagird mətni***

*Qapıçıların futbol qarşılaşmalarında topu uzun müddət əllərində saxlamaları qadağandır. Buna ən böyük səbəb 1992-ci ildə keçirilən və Danimarka Milli Komandasının qalibiyyəti ilə başa çatan Avropa Çempionatı olmuşdur. Danimarkalılar Almaniya Milli Komandası qarşısında bir-sıfır hesabla üstünlük əldə etdikdən sonra topu dövrünün ulduz qapıçılarından olan Kasper Şmayxla ötürərək vaxt keçirdilər, bunun nəticəsində qarşılaşma "vikinqlərin" üstünlüyü ilə başa çatdı. Bu taktikadan digər matçlarda da istifadə edən Danimarka Milli Komandası Avropa Çempionatının kubokuna sahib oldu. Danimarkalıların ədalətsiz oyun tərzi FİFA rəsmilərini yeni qayda tətbiq etməyə məcbur etdi. Artıq futbol qarşılaşmalarında qapıçıların komanda yoldaşlarının ötürmələrindən sonra topu əllərinə götürməyi qadağan olunmuşdur. Eyni zamanda qolkiperlərin topu əllərində saxlama müddətinə də limit tətbiq edilmişdir.*

*(Turqut Nənhəmli, 9-cu sinif şagirdi)*

**Fəaliyyət 5:** Şagirdlərə bu strukturu qrafik model vasitəsilə modelləşdirməyi tapşırın.

Şagird mətninin struktur modeli:



(Turqut Nəhmətli, 9-cu sinif şagirdi)

**Mürəkkəb strukturlu mətndə məna əlaqələrinin təhlili:**

**NƏ ÜÇÜN DƏMİR PASLANIR**

**Nəticə:** Bıçaq və çəngəli yuduqdan sonra nə baş verə bilər? Onlar paslanacaq. Bunu bütün evdar qadınlar bilir.

**Səbəb:** Demək, dəmir nəmişlikdən paslanır.

Bir dəfə dalğıclar dənizin dibində bir əsr yarım ərzində suda qalmış gəmiyə rast gəldilər. Gəminin üstündə onlar bir neçə top tapdılar. Top elə paslanmışdı ki, onu hətta bıçaqla da kəsmək olardı. Bax, su gör onu nə hala salmışdı.

**Problem:** Bəs dəmiri nəmişlikdən necə qorumalı?

**Həlli:** Onu quru saxlmalıyıq.

**Problem:** Axı elə əşyalar var ki, onları daim quru saxlamaq mümkün deyildir. Vedrə, çaydan, vanna istədin-istəmədin yaş olmalıdır. Dəmir dam örtüyünü isə nəmişlikdən qorumaq daha çətindir. Axı onu yağışdan sonra dəsmalla silməyəcəyik ki.

**Nəticə:** Quru havalarda da dəmir çürüyə bilir. Hərçənd bu proses çox yavaş gedir. **(Səbəb)** Havada nəmişlik həmişə var. Hava hər şeyi qurudur, ***(Ziddiyyət)*** özü isə quru olmur. O, acgözlüklə suyu hər yerdən sorur: təzə yuyulmuş döşəmədən, yaş dəsmallardan, şehli otlardan, yağış yağdıqdan sonra islanmış hər şeydən və hər yerdən.

**Səbəb-nəticə:** Dəmiri paslanmaqdan qoruyan ən etibarlı vasitə onu nəmişlik buraxmayan başqa maddə qatı ilə örtməkdir. Deməli, günəbaxan yağı ilə də yağlamaq olar. Bu yağ dəmiri sudan qoruyar və onu çürüməyə qoymaz.

**Ziddiyyət:** Ancaq adətən, başqa cür hərəkət edirlər. yağ əvəzinə yağlı rəngdən, bir sözlə, əlif qatılmış – qaynadılmış yağdan istifadə edirlər. Suda bişmiş yağ tez quruması ilə fərqlənir. Dəmir üstündəki rəng qatı quruyur və möhkəm olur. Belə möhkəm qat, əlbəttə ki, dəmir üstündə yağ məhlulu qatından daha yaxşı və daha çox durar.

Bu üsul həm dam örtüyü, ***(Müqayisə)*** həm də vedrə üçün yaxşıdır**. (Ziddiyyət**) Ancaq çaydanları heç kim rəngləmir**, *(Nəticə-səbəb)*** çünki qaynayan zaman rəng tez çürüyər və qopub dağılar**. (Problem)** Bəs çaydanları paslanmadan necə qorumalı?

**Qeyd:** Mətndə hər üç səviyyədə məna əlaqələri müşahidə olunur.

**İstifadə olunmuş ədəbiyyat:**


1. Cindy D. Jones, Sarah K. Clark, and D. Ray Reutzel. Teaching Text Structure. Examining the Affordances of Children's Informational Texts. https://www.journals.uchicago.edu/doi/full/10.1086/687812
2. 20 Strategies to Teach Text Structure. https://education.illinoisstate.edu/downloads/casei/3-01-04-handout%20TextStructureResources%201.pdf
3. Helping Students Focus on Text Structure. https://ies.ed.gov/ncee/wwc/Docs/PracticeGuide/wwc_rc_pg_rec02.pdf
4. Text Structures https://dpi.wi.gov/sites/default/files/imce/ela/images/Text%20Structures.pdf
5. Text Structure. https://www.adlit.org/in-the-classroom/strategies/text-structure
6. What is Text Structure — Definition, Examples & Types Explained. https://www.studiobinder.com/blog/what-is-text-structure-definition/



**Könül Nəhmətova**

**ARTİ, Əlavə təhsilin məzmunu şöbəsinin müdiri**